*"Azərbaycan xalqı 1990-cı ilin 20 Yanvarında hərbi, siyasi və mənəvi təcavüzə məruz qalsa da, öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu, Vətənin azadlıq və müstəqilliyi naminə ən ağır sınaqlara sinə gərmək, hətta şəhid vermək əzmini bütün dünyaya nümayiş etdirdi...".*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 23 yanvar 2015-ci il № 6 (1922) Qiyməti 25 qəpik


## Azərbaycan Prezidenti İlham Əliyev şəhidlərin əziz xatirəsini yad edib

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 20-də - Ümumxalq Hüzn Günündə 20 Yanvar şəhidlərinin xatirəsini yad edib.***

Qanlı Yanvar hadisələrindən 25 il keçir. 1990-cı il yanvarın 20-si Azərbaycanın müasir tarixinə ən faciəli günlərdən biri, eyni zamanda, xalqımızın qəhrəmanlıq səhifəsi kimi daxil olub, milli müstəqillik, azadlıq uğrunda mübarizəsinin və yenilməz iradəsinin rəmzinə çevrilib. Təpədən-dırnağadək silahlanmış keçmiş Sovet ordusunun cəza tədbirlərinə məruz qalan xalqımız azadlıq əzmini itirməmiş, əksinə, haqq səsini daha ucadan bəyan etmişdi. Düz 25 il əvvəl doğma yurdunun, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan vətənpərvər Azərbaycan övladları həmin müdhiş gecədə canlarından keçərək şəhidlik zirvəsinə ucaldılar. Sovet qoşunlarının Azərbaycanda törətdiyi qanlı qırğından uzun illər keçməsinə baxmayaraq, xalqımız o dəhşətli günlərin ağrı-acısını unutmur, öz vətəndaşlarına divan tutan Sovet imperiyasının o vaxtkı rəhbərlərinə və onların Azərbaycandakı nökərlərinə dərin nifrətini bildirir.



SSRİ rəhbərliyinin Azərbaycana qarşı qərəzli, ermənipərəst siyasətinə, əzəli torpaqlarımıza iddia edən Ermənistanın təcavüzkar siyasətinin açıq-aşkar dəstəklənməsinə və respublikanın o zamankı rəhbərliyinin xəyanətkar mövqeyinə etiraz əlaməti olaraq ayağa qalxmış geniş xalq kütlələrinə qarşı Sovet ordusunun iri hərbi birləşmələrinin yeridilməsi Azərbaycanda, xüsusilə Bakıda misli görünməmiş faciəyə gətirib çıxardı, böyük itkilərlə, günahsız insanların ölümü ilə nəticələndi. Buna baxmayaraq, Azərbaycanın o vaxtkı səriştəsiz, kölə psixologiyalı rəhbərlərinin yenə də xalqla bir olmağa cəsarəti çatmadı və onlar Sovet rəhbərliyinin ətəyindən tutmaqda davam etdilər.





Onlardan fərqli olaraq, həmin vaxt Moskvada yaşayan xalqımızın dahi oğlu Heydər Əliyev həyatını təhlükədə qoyaraq, faciənin ertəsi günü Azərbaycanın daimi nümayəndəliyinə gələrək, Qanlı Yanvar qırğınını törədənləri pisləyən kəskin bəyanatla çıxış etdi, xalqımızın başına gətirilən müsibəti dünyaya çatdırdı. Bununla da ulu öndər cəsarətini, mərdliyini, xalqının sədaqətli oğlu olduğunu bir daha sübut etdi.

Əlbəttə, ermənilərin fitvası ilə törədilmiş bu cinayət Azərbaycan xalqının iradəsini qıra, azadlıq eşqini söndürə bilmədi. Xalqımız qanı bahasına da olsa istəyinə - azadlıq və müstəqilliyinə qovuşdu və bu nailiyyəti heç vaxt əlindən verməyəcəkdir.

Keçmiş Sovet hərb maşınının Azərbaycanda törətdiyi qanlı qırğın mahiyyətinə görə dövlətin öz vətəndaşlarına qarşı tarixdə misli görünməmiş təcavüzü, qətliamı idi. Keçmiş SSRİ və Azərbaycan SSR konstitusiyalarının kobudcasına pozulması, ayaqlar altına atılması idi. Həmin gün keçmiş SSRİ dövləti dinc əhalinin üstünə qoşun yeritməklə BMT Nizamnaməsinə, beynəlxalq hüquq normalarına məhəl qoymamış, iştirakçısı olduğu Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Paktın bir sıra müddəalarını pozmuşdu.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycan rəhbərliyinə yenidən qayıdışından sonra, 1994-cü ildə 20 Yanvar hadisələrinə siyasi-hüquqi qiymət verildi və cinayəti törədənlərin adları ictimaiyyətə çatdırıldı. 20 Yanvar - Ümumxalq Hüzn Günü elan edildi.

Azərbaycan xalqı hər il 20 Yanvar faciəsi qurbanlarının xatirəsini dərin ehtiramla yad edir.

* * *

Yanvarın 20-də səhər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qanlı Yanvar faciəsində həlak olanların əziz xatirəsini yad etmək üçün Şəhidlər xiyabanına gəldi.

Prezident İlham Əliyev "Əbədi məşəl" abidəsi önünə əklil qoydu.

Müdafiə Nazirliyinin əlahiddə nümunəvi hərbi orkestrinin ifasında Azərbaycanın Dövlət himni səsləndi.

* * *

Dövlət və hökumət rəsmiləri, respublikamızdakı dini icmaların başçıları, xarici ölkələrin Azərbaycandakı səfirləri, beynəlxalq təşkilatların nümayəndələri də şəhidlərin əziz xatirəsini yad etməyə gəlmişdilər.

* * *

Şəhidlər xiyabanının ziyarət olunması mərasimində Baş nazir Artur Rasizadə, Milli Məclisin sədri Oqtay Əsədov iştirak edirdilər.

**AzərTAc**

## Qəhrəmanlıq və qürur tariximiz

***1990-cı ilin 20 Yanvar hadisələrindən 25 il keçir. Amma adama hərdən elə gəlir ki, bu müdhiş hadisələr dünən, sırağagün baş verib. İnsanları səksəkəyə salan güllə vıyıltıları, tank, mərmi səsləri haqqında düşünəndə, bir daha o qanlı faciənin səbəbkarlarına lənətlər yağdırırıq. Ancaq xalqımız həmin günü təkcə hüzn kimi yox, həm də qəhrəmanlıq günü kimi qeyd edir.***

Əslində başımıza gətirilən 20 Yanvar faciəsi zülmə və haqsızlığa yumruq göstərən bir xalqın hayqırtısı idi. Keçmiş ittifaq rəhbərliyi isə azadlığa, müstəqilliyə qovuşmağa can atan bir xalqın haqq səsini boğmağa çalışırdı. Təpədən-dırnağadək silahlanmış ordu bölmələrini ölkəmizin paytaxtına yeridən imperiya başçıları xalqımızın azadlıqsevər övladlarını qətlə yetirsələr də, məqsədlərinə çata bilmədilər. Əksinə, bu hadisələr xalqımızın azadlığa, müstəqilliyə qovuşmasını daha da sürətləndirdi. Xalqımızın iradəsi, həmişə olduğu kimi, bu dəfə də tankların, topların qarşısında əyilmədi, sınmadı.

Ötən əsrin 80-ci illərindən başlayan azadlıq mübarizəsinin 1990-cı ildə daha geniş vüsət almasından qorxuya düşən imperiya rəhbərləri həm Azərbaycana, həm də digər ittifaq respublikalarına "dərs vermək" qərarına gəldilər. Heç kəs inanmazdı ki, Sovet ordusu öz vətəndaşlarına atəş açar. Amma bu, baş verdi. Yanvarın 20-nə keçən gecə Sovet ordusunun bu vəhşiliklərinin də şahidi olduq. Şəhərə daxil olan tanklar insanları əzib keçdi, binalar, avtobuslar, təcili yardım maşınları onların hədəflərinə çevrildi. O qanlı-qadalı gecədə yüzlərlə günahsız adam həlak oldu, yaralandı. Həmin şəhidlər arasında məktəblilərin, qocaların, hətta körpələrin olması isə Sovet ordusunun xüsusi amansızlığının sübutu idi. O təhlükəli günlərdə hədə-qorxulara baxmayaraq, xalqımız öz azadlıq şəhidlərini çiyinlərində son mənzilə yola saldı. Küçələr, Şəhidlər xiyabanı qırmızı qərənfillərə qərq edildi. 20 Yanvar qırğını imperiyanın gözlədiyi nəticəni vermədi. İnsanları qorxudub çəkindirmək, azadlıq arzusunu boğmaq cəhdi puça çıxdı. Bu qırğında tökülən şəhid qanları insanları daha da birləşdirdi. Müqəddəs ideya uğrunda milli birlik, həmrəylik nümayiş etdirən xalqımız, nəhayət ki, öz məqsədinə çatdı. 1991-ci ilin 18 oktyabrında Azərbaycan Respublikası öz müstəqilliyini yenidən bərpa etdi.

Azərbaycan xalqı öz qəhrəman övladlarının fədakarlığını yüksək qiymətləndirərək hər il 20 Yanvar günündə onların xatirəsini dərin ehtiramla yad edir.

Ənənəvi olaraq 20 Yanvar hadisələrinin ildönümü günlərində soydaşlarımız Şəhidlər xiyabanını ziyarət edərək, müstəqilliyimiz, azadlığımız uğrunda canından keçən qəhrəmanların məzarları üzərinə gül dəstələri, qərənfillər düzdülər.

Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin rəhbərliyi və şəxsi heyəti 20 Yanvar faciəsinin ildönümü ilə əlaqədar Şəhidlər xiyabanını ziyarət edib.

Hərbi qulluqçular Vətənin azadlığı, müstəqilliyi uğrunda şəhid olmuş vətəndaşlarımızın xatirəsini hörmət və ehtiramla yad edib, məzarları üzərinə gül dəstələri qoyublar.

Bəli, illər bir-birini əvəz edəcək, nəsillər dəyişəcək, lakin Vətən oğullarının xatirəsi ürəklərdə əbədi yaşayacaqdır. Neçə illər keçsə də, xalqımız öz qəhrəman övladlarını heç vaxt unutmayacaq. Çünki 20 yanvar gecəsində azadlığımız uğrunda şəhid olanlar igidlikləri ilə adlarını tariximizin səhifəsinə böyük hərflərlə yazıblar.

**"Azərbaycan Ordusu"**

## ABŞ konqresmeni 20 Yanvar faciəsinin 25-ci ildönümü ilə bağlı bəyanat verib

ABŞ Konqresindəki Azərbaycan üzrə işçi qrupun həmsədri Bil Şuster 20 Yanvar faciəsinin 25-ci ildönümü ilə bağlı bəyanatla çıxış edib. Konqresmen 1990-cı il yanvarın 20-də 26 min hərbçidən ibarət ağır silahlı sovet hərbi birləşməsinin Bakıda dinc mülki şəxslərə hücum etdiyini, nəticədə yüzlərlə insanın həlak olduğunu və yaralandığını bildirib. B.Şuster bu hadisəni kommunist rejiminin çökməsinin qarşısını almaq üçün SSRİ-yə daxil olan digər respublikalara xəbərdarlıq kimi dəyərləndirib.

Konqresmen 20 Yanvar hadisəsinin Azərbaycan xalqını daha da birləşdirdiyini və proseslərin Azərbaycanın müstəqillik əldə etməsi ilə nəticələndiyini diqqətə çatdırıb. B.Şuster, həmçinin ABŞ ilə davamlı dostluğa görə Azərbaycan xalqına təşəkkürünü ifadə edib.

**AzərTAc**

## Senator Çarlz Şumer:
## "Qara yanvar" şəhidlərinin xatirəsi günündə azərbaycanlıları Amerikada dəstəkləməkdən şərəf duyuram

ABŞ Azərbaycanlıları Şəbəkəsi Amerika ictimaiyyətini "Qara yanvar" faciəsi haqqında məlumatlandırmaq üçün yazılı kampaniya keçirir.

Nyu-York ştatından senator Çarlz Şumerin ABŞ Azərbaycanlıları Şəbəkəsinin üzvü Rene Köniqə cavab məktubunda qeyd edir ki, bu faciənin anılması vacibdir. Ç.Şumer yazır: "1990-cı ilin yanvarında Sovet qoşunları Azərbaycanın paytaxtı Bakıda amansız qırğın törədiblər. Sovet İttifaqının törətdiyi cinayətləri anlamaq indiyədək çətindir, onların nəticələri isə göz qabağındadır". ABŞ ilə Azərbaycan arasında hələ 1919-cu ildə qurulmuş ikitərəfli münasibətlərin vacibliyini qeyd edən senator yazır ki, Azərbaycan Respublikası ABŞ-ın uzunmüddətli strateji tərəfdaşıdır, terrorizmlə mübarizədə sülhməramlı qüvvələrə kömək edir". Sonda Ç.Şumer yazır: "Mən "Qara yanvar" şəhidlərinin xatirəsi günündə azərbaycanlıları Amerikada dəstəkləməkdən şərəf duyuram".

## Avstraliyanın "The Canberra Times" qəzeti 20 Yanvar faciəsindən yazır

***Azərbaycanın Avstraliyadakı səfirliyinin təşəbbüsü ilə bu ölkənin "The Canberra Times" qəzetində "1990-cı ilin 20 yanvarı: Azərbaycanda qırmızı terrorun qara üzü" adlı məqalə dərc olunub.***

Məqalədə 1980-ci illərin ikinci yarısında erməni millətçilərinin keçmiş Sovet İttifaqında yaranan gərgin vəziyyətdən istifadə edərək Azərbaycanın Dağlıq Qarabağ vilayətini Ermənistana birləşdirmək istiqamətində məkrli planın həyata keçirilməsi məqsədilə keçmiş SSRİ-nin rəhbəri M.Qorbaçovun dəstəyini aldıqları bildirilir. Qeyd edilir ki, Ermənistanda həyata keçirilən etnik təmizləmə siyasəti nəticəsində ötən əsrin 80-ci illərinin sonlarında 250 min azərbaycanlı öz ata-baba yurdlarından zorla qovulub, 200-dən artıq insan amansızlıqla qətlə yetirilib. Buna etiraz olaraq, azərbaycanlıların Bakı və digər şəhərlərdə meydanlara axışaraq kommunist rejiminə etimadsızlıq göstərməsi və Azərbaycana müstəqillik verilməsi şüarları ilə çıxışlar etdikləri vurğulanır.

Məqalədə vurğulanır ki, o vaxt Moskvada yaşayan ümummilli lider Heydər Əliyev Azərbaycanın bu şəhərdəki daimi nümayəndəliyinə gedərək faciəni törədənləri pisləyib və buna görə keçmiş SSRİ-nin rəhbəri M.Qorbaçovun birbaşa məsuliyyət daşıdığını söyləyib. Sonrakı illərdə isə ümummilli liderin qətiyyəti sayəsində hadisəyə siyasi-hüquqi qiymət verildi. Ulu öndər Heydər Əliyev böyük müdrikliklə Azərbaycan xalqının müstəqil dövlət qurmaq arzusunu gerçəkləşdirdi. 20 Yanvar faciəsi qanla yazılan şanlı tarixə çevrildi.

Yazıda faciənin qurbanlarına Prezident Heydər Əliyevin 1999-cu il 16 dekabr tarixli Fərmanı ilə "20 Yanvar şəhidləri" statusunun verildiyi də diqqətə çatdırılır.

Məqalə Azərbaycan xalqının Vətənin ərazi bütövlüyü və azadlığı uğrunda canlarından keçənləri heç zaman unutmayacağı və onların xatirəsini daim əziz tutacağı barədə fikirlə tamamlanır.

**AzərTAc-ın materialları əsasında**

## Türkiyə parlamentinin sədri Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətini pisləyib

Türkiyə Böyük Millət Məclisinin sədri, İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqı Konfransının yeni sədri Cəmil Çiçək Konfransın 10-cu sessiyasındakı çıxışında Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətini kəskin şəkildə pisləyib.

Azərbaycan ərazisinin 20 faizinin Ermənistan silahlı qüvvələri tərəfindən zəbt olunduğunu diqqətə çatdıran Cəmil Çiçək bildirib ki, işğal nəticəsində yurd-yuvasından didərgin düşən bir milyondan çox azərbaycanlının hüquqları pozulub. Türkiyə parlamentinin sədri deyib ki, ölkəsi hər zaman Azərbaycanın ərazi bütövlüyünü müdafiə edəcək.

**AzərTAc**

# Müdafiə naziri Fransa Respublikasının Azərbaycandakı səfirini qəbul edib



Yanvarın 21-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Fransa Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri cənab Paskal Mönyeni qəbul edib.

Regiondakı hərbi-siyasi vəziyyətə toxunan Müdafiə naziri, Ermənistanın işğalçılıq siyasətinin bu gün də davam etdiyini, bunun nəticəsində sülh prosesinin yubanmasını və danışıqların uzadılmasının bölgədəki şəraitə mənfi təsir göstərməsini diqqətə çatdırıb.

Qonaq Azərbaycan və Fransa arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etməsindən məmnun olduğunu bildirib.

Görüşdə Fransa-Azərbaycan hərbi və hərbi-texniki əlaqələrin inkişaf perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Müdafiə naziri Birləşmiş Ərəb Əmirliklərinin Hərbi Hava Qüvvələri Komandanını qəbul edib



Yanvarın 22-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Birləşmiş Ərəb Əmirlikləri Silahlı Qüvvələri Baş Qərargahının Hərbi Hava və Hava Hücumundan Müdafiə Qüvvələri Komandanı general-mayor İbrahim Nasir Məhəmməd Əl-Ələvini qəbul edib.

Tərəflər regional hərbi-siyasi vəziyyət, ikitərəfli hərbi əməkdaşlığın perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparıblar.

Müdafiə naziri Ermənistanın işğalçılıq siyasətinin bu gün də davam etdiyini xüsusi vurğulayaraq Silahlı Qüvvələrin şəxsi heyətinin Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətənin hər qarış torpağını işğalçılardan azad etmək üçün döyüşə hazır olduqlarını diqqətə çatdırıb.

Görüşdə Birləşmiş Ərəb Əmirliklərinin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri cənab Səlim Xəlifə Məhəmməd Əl-Ğafli iştirak edib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# “Ürəklərdə yaşayan sərkərdə”

## İki dəfə Sovet İttifaqı Qəhrəmanı general-mayor Həzi Aslanovun anım mərasimi keçirilib









***Yanvarın 22-sidi...***

***1990-cı ildə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun anım günü olmadı. 1945-ci ildən üzü bu yana 22 yanvar unudulmamışdı. 90-cı ildə ümumxalq kədərinə bürünmüşdük, şəhidlərimiz xalqın çiyinlərində Şəhidlər xiyabanına aparılırdı... Həmin gün şəhidlərimizi dəfn elədik. Həzi Aslanovun abidəsinin yaxınlığında - sonralar Şəhidlər xiyabanı adlandırılacaq Dağüstü parkda. Qəhrəmanın ruhu bizlərdən gileyli qalmadı - onun uca ruhu da sıralarımızdaydı, bu biçim faciə onun da qürurunu, heysiyyətini silkələmişdi...***

Yanvarın 22-sidi. İki dəfə Sovet İttifaqı Qəhrəmanı tank qoşunları general-mayoru Həzi Aslanovun anım günüdü. Gözlərimi qəhrəmanın üzü şəhidlərimizə baxan abidəsindən çəkə bilmirəm. "Gözləri yol çəkir" elə bil. Sağa baxıram - şəhidlərimiz, sola baxıram - Həzimiz...

*Sizdən almalıyıq tarix dərsini,*
*O illər tarixdi, tarixə dönüb.*
*O vaxtdan göy üzü hər birimizin*
*Başına dolanıb, başına dönüb.*

*Tarix yaratdınız, düşübdü dilə,*
*Tarixi yaşatmaq deyildir asan.*
*Tarix yaratdınız, bu tarix ilə,*
*Həzi, şəhidlərin sırasındasan...*

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq elədiyi plana müvafiq olaraq keçirilən tədbirdə Müdafiə Nazirliyi adından sərkərdənin abidəsi önünə əklil qoyuldu. Respublika Veteranlar Təşkilatı da Həzi Aslanova ehtiramını əklil qoymaqla bildirdi.

İctimaiyyətin, qəhrəmanın adını daşıyan orta məktəbin şagirdlərinin, Silahlı Qüvvələrimizin nümayəndələrinin iştirak etdiyi anım tədbirini Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəis müavini polkovnik Abdulla Qurbani açaraq böyük sərkərdənin həyat və döyüş yolundan, onun haqqında yazılmış çoxsaylı publisistik, bədii əsərlərin məğzindən danışdı, Heydər Əliyevin bir fikrinə istinad elədi: mən bütün qəhrəmanların xatirəsini əziz tuturam. Ancaq mənim üçün Həzi Aslanovun xüsusi yeri vardır.

Müdafiə nazirinin müavini general-leytenant Kərim Vəliyev çıxışında iki dəfə Sovet İttifaqı Qəhrəmanı tank qoşunları general-mayoru Həzi Aslanovun parlaq döyüş yolundan söz açaraq qeyd etdi ki, bu şərəfli yol müasir tariximizin qürur doğuran səhifələrindəndir, gəncliyimizə əvəzsiz örnəkdir. Azərbaycan əsgəri döyüş yolunu örnək bildiyi Həzi Aslanovun qəhrəmanlığını təkrar eləməyə qadirdir...



Respublika Veteranlar Təşkilatının sədri general-mayor Dadaş Rzayev, millət vəkili Xanhüseyn Kazımlı, "Sizi dünyalar qədər sevirdim..." bədii filmində Həzi Aslanovun rolunu ifa edən xalq artisti Ramiz Novruzov da çıxışlarında bir qəhrəman ömrünün işığından söz açdılar.

Baba Həzi Aslanov alman faşist işğalçılarına qarşı mübarizə aparırdı, nəvə Həzi Aslanov "ağ ölüm"ə qarşı mübarizə aparır. General-mayor Həzi Aslanov babasının xatirəsinə göstərilən ehtirama görə respublikamızın Prezidenti cənab İlham Əliyevə və Müdafiə naziri general-polkovnik Zakir Həsənova minnətdarlığını bildirdi.

* * *

Anım tədbiri C.Naxçıvanski adına Hərbi Liseydə "Həyatda qəhrəmanlığa həmişə yer var" devizi ilə davam etdi.

Video-təqdimata baxdıqca "Qəhrəman sərkərdəmizin neçə 35 illərə sığmayan ömrünün hələ tarixləşməmiş səhifələri var" - düşünürəm. Yazılanlar bu ömrün həyat fəlsəfəsini tam əhatə eləmir, şübhəsiz. Böyük Vətən müharibəsinin gedişində "Vətən uğrunda" jurnalında Mir Cəlalın az sonra qəhrəmanlığı tarixləşəcək bir sərkərdə haqqında yazdığı məqaləni, Hüseyn Abbaszadənin "General" romanını, Abdulla Qurbaninin, Şəmistan Nəzirlinin bu tarixi şəxsiyyətə həsr elədiyi kitabları, böyük sevgilərlə baxdığımız "Sizi dünyalar qədər sevirdim..." bədii filmini, əməkdar incəsənət xadimi Musa Bağırovun tədqiqatlarını, qəhrəmanın "Pravda" qəzetində dərc olunmuş "Qalibgəlmə elmi" məqaləsini və s. xatırladım.

> **Heydər ƏLİYEV:**
> *"Ata-babalarımızın, əcdadlarımızın qəhrəmanlıq ənənələri, nümunələri bizə yardımçıdır".*

Böyük sərkərdənin döyüş yolundan bəhs edən video-təqdimat tədbir iştirakçılarına Həzili ayları, illəri bir daha yaşatdı. Kadrlar zaman hesabı ilə 35 illik bir ömrün salnaməsiydi elə bil. Həzi Aslanov haqqında bildiklərimin bəzi məqamlarını xatırladım.

İllərin o üzündə qalan, unudulmayan o vaxtlarda bir hadisə tarixin axarını bir niyyətə kökləyibmiş...

"Tam artilleriya generalı Səməd ağa Mehmandarovun “Böyüyəndə nəçi olacaqsan?" sualına 8 yaşlı uşağın "General olacam" cavabı düşüncələrimin "üvertürası" olub. Həzi general oldu. "Qəhrəman olacam!" - demədi, qəhrəman oldu. Çox yüksək çinli hərbçilərin də etiraf etdiyi kimi, ümidsiz döyüşlərdə qələbə qazanmaqla Qələbəyə yol açan sərkərdə oldu Həzi Aslanov. Azərbaycanımızın şöhrət ünvanlarından biri oldu.

...Yuxarı Kumsk rayonu ərazisində gedən döyüşdə Həzi Aslanovun komandiri olduğu alay düşmənin 45 tankını məhv elədi, 13-nü ələ keçirdi. Alaya qvardiya alayı adı verildi. Bu qibtəediləcək ad Həzi Aslanovun sərkərdəlik qabiliyyətinin başqa bir çalarda təsdiqi idi.

...1943-cü il fevralın 14-də Həzi Aslanovun komandiri olduğu alay Rostova çatdı. Mius cəbhəsinin yarılmasında, 416-cı Taqanroq diviziyası ilə qarşılıqlı əlaqə şəklində Taqanroqun azad olunmasında iştirak etdi. 1943-cü ilin noyabr ayına kimi alay düşmənin 73 tankını, 152 topunu, 320 avtomaşınını, 15 minamyot batareyasını, 14 "Ferdinand"ını, 6500-ə yaxın əsgər və zabitini məhv elədi. Bu əməliyyatlara görə komandir Həzi Aslanova general-mayor rütbəsi verildi. Ali Baş Komandanın əmrində Minsk şəhərinin azad olunmasında Həzi Aslanovun komandiri olduğu tank briqadasının da mərdliklə döyüşdüyü qeyd olunur, komandir II dərəcəli Suvorov ordeni ilə təltif edilir.



..."Tanklar mütləq irəli getməlidir. Qələbəyə..." - bu, 1945-ci il yanvarında döyüş meydanında həlak olan general-mayor Həzi Aslanovun son sözləridir...

* * *

Anım tədbiri C.Naxçıvanski adına Hərbi Liseydə davam edir. Kursantların marağını, həvəsini sezmək çətin deyil; mənalı bir ömürə həsr edilmiş tədbirin işığına gəliblər. Elə bir ömrün ki, ünvanı ürəklərdi. Vətənini, xalqını, dövlətçiliyini sevənlərin ürəyi...

Polkovnik Abdulla Qurbani tədbiri açaraq bildirir ki, Həzi Aslanovun anım günü bu gün sabiq SSRİ-nin müxtəlif şəhərlərində də keçirilir.

C.Naxçıvanski adına Hərbi Liseyin rəisi general-mayor Mirzə Almasov tədbir iştirakçılarını salamlayaraq Həzi Aslanov kimi böyük bir sərkərdənin anım gününün burda keçirilməsindən qürur duyduğunu, onun ömrünün hər anının məktəbin kursantları üçün örnək olduğunu bildirir.

Video-təqdimatda istər qəhrəmanın özünün görüntüsü, istərsə də oğulları Tofiqin və Arifin dedikləri hamını duyğulandırır.

Polkovnik Abdulla Qurbaninin dediyi bir məqam da tədbir iştirakçılarının qürurunu kükrədir:

- Həzi müdavimdir. Hamısı yay tətilinə getməlidir. Bir nəfərin duruşu Həzinin diqqətini çəkir. Məlum olur ki, adı Aslandı, ata-anası yoxdu. Həzi kövrəldiyini büruzə verməndən:

- Mənim anam sənin də anandı, - deyir. O ilin tətilini Lənkəranda keçirirlər...

Aslan sonralar Sovet İttifaqı Qəhrəmanı olacaq Aslan Vəzirov idi...

Böyük tarixi şəxsiyyət olan Heydər Əliyevin "Ata-babalarımızın, əcdadlarımızın qəhrəmanlıq ənənələri, nümunələri bizə yardımçıdır" - kəlamı gənclərimizin vətənpərvərlik duyğularının arzulanan səviyyəyə çatdırılmasında mühüm əhəmiyyətə malikdir. Belə ənənələrdən biri də qəhrəmanlarımızın döyüş yoludur. İki dəfə Sovet ittifaqı Qəhrəmanı Həzi Aslanovun döyüş yolu kimi...

Silahlı Qüvvələrin Mahnı və Rəqs Ansamblının ifasında "Ürəklərdə yaşayan sərkərdə" bədii kompozisiyası bir həqiqətin bədii təsdiqiydi: hər ömür əbədiyyət yoluna qovuşmur. Əqidəsi, amalı, sevgisi yerə-göyə sığmayan ömürlərin son ünvanı ürəklərdi. Həzi Aslanov kimi oğullar nəsil-nəsil xatırlanacaq, nəsil-nəsil ürəklərdə yaşayacaq...

...Aydın gecələrdə səmada sayrışan ulduzları çox görmüşük, milyonların sırasında seçilən, gözçəkən, könül xoşluğuna dönən ən parlağına səyyarə demişik. Ömür də belədi, işığı aydınlığı ilə sezilir, görünür, yüz illərlə (əslində, tarixən) sönmür. Həzi Aslanov belə bir ömür yaşadı, yaşadığı ömrü özünə ad eləmədi, xalqının adına, şöhrətinə ad elədi... İllər keçdikcə bu işıq daha aydın görünür...

İki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun nəvəsi Emin Aslanov anım gününün təşkilatçılarına minnətdarlığını bildirdi.

Həzi Aslanov adına Mərkəzi Zabitlər Evi Mahnı və Rəqs ansamblının üzvlərinin ifasında səslənən mahnılar ürəklərdə yaşayan sərkərdənin yaşarı ömrünün musiqi davamıdı - düşündüm, bu anım gününü tarix kimi yaşadıq. Həzi Aslanova ad olan tarixi gün kimi...

**Rəşid FAXRALI,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**Namiq ARİFOĞLUNUNDUR**

# Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyəti ilə ictimai-siyasi hazırlıq sistemində keçirilən V dərs

**Mövzu:** Azərbaycan Respublikasında dövlət gənclər siyasəti. Cəmiyyətdə gənclərin rolu və yeri.

**Məqsəd:** *Gənc nəslin cəmiyyətdə, dövlət və Silahlı Qüvvələr quruculuğunda rolunu şərh etmək, şəxsi heyəti hərbi vətənpərvərlik ruhunda tərbiyə etmək, şüurlu hərbi xidmətə ruhlandırmaq.*

**SUALLAR:**

**1. Azərbaycan gəncliyi müstəqilliyimizin ilk illərində. Ümummilli lider Heydər Əliyevin Azərbaycan gənclərinə qayğısı və inamı.**

**2. Azərbaycan gənclərinin milli-mənəvi ruhda tərbiyəsi, onların problemlərinin həlli dövlətimizin diqqət mərkəzindədir.**

**3. Azərbaycanın müstəqilliyini qorumaq hər bir Azərbaycan gəncinin müqəddəs borcudur.**

*Azərbaycan gəncliyi müstəqilliyimizin ilk illərində. Ümummilli lider Heydər Əliyevin Azərbaycan gənclərinə qayğısı və inamı.*

Tarixən hər bir xalq özünün xoşbəxt gələcəyə olan ümidlərini, ilk növbədə gənc nəsillə bağlayır. Gənc nəslin yetişdirilməsi hər bir xalq üçün ən başlıca məsələdir. Həmçinin, dünyanın istənilən ölkəsində gənclər sosial-iqtisadi inkişafın aparıcı qüvvələrindən biri, cəmiyyətdə islahatları hərəkətə gətirən zümrə və yaşlı nəslin davamçısı hesab olunur. Gənclər cəmiyyətin ən dinamik zümrəsi olmaqla ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatda fəal iştirak edir, ölkədə baş verən bütün proseslərin mərkəzində dayanırlar. Nəsillər dəyişir, ölkələr inkişaf edir. Ancaq ənənələr, milli dəyərlər, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması onun mənsub olduğu xalqın rifahının və ölkənin çiçəklənməsinin rəhnidir.

Respublikamızın müstəqilliyinin ilk dövrlərində əhalinin bütün təbəqələri, sosial qrupları arasında müşahidə olunan milli oyanış, sosial-siyasi fəallıq gənclərdən də yan keçməmişdi. Gənclərimiz Sovet imperiyasına qarşı mübarizənin, o cümlədən Qarabağ hadisələri ilə bağlı təşəkkül tapmış xalq hərəkatının ön sıralarında getmişlər. 1988-ci ildə erməni ekstremistlərinin Azərbaycana qarşı başladıqları hərbi təcavüzü dəf etmək üçün ilk özünümüdafiə dəstələrinin yaradılmasında və fəaliyyət göstərməsində gənclərin böyük xidmətləri olub.

Müstəqilliyimizin bərpası ilə Azərbaycan gəncliyində yeni prinsiplər, mənəvi dəyərlər, həyata yeni baxışlar sistemi formalaşmağa başladı. Məqsəd və vəzifələrinə, fəaliyyətin istiqamətlərinə, sosial tərkibinə görə bir-birindən fərqli, yeni, müstəqil gənclər təşkilatları yaranmağa başladı. Lakin 1991-1993-cü illərdə respublikada hökm sürən hərc-mərclik şəraitində gənclər təşkilatlarının çoxunda siyasiləşmə, populizm meyilləri özünü büruzə verdi. Azərbaycanın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünün qorunması, ölkədə hüquqi-demokratik dövlət quruculuğu prosesinin həyata keçirilməsi vəzifələri gənclərin ümummilli dövlət mənafeləri əsasında səfərbər olunması, vahid gənclər siyasətinin hazırlanıb həyata keçirilməsi zərurətini ortaya atdı.

Müstəqil Azərbaycan Respublikasında gənclərlə iş sahəsində yaranmış boşluq yalnız 1993-cü ilin iyununda ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra aradan qaldırılmağa başlandı və gənc nəslə diqqət və qayğı dövlətin ən mühüm fəaliyyət sahələrindən birinə çevrildi. Məhz 1993-cü ildən başlayaraq Azərbaycanda dövlət gənclər siyasəti təşəkkül tapmağa başladı.

Ölkə rəhbərliyinə gəldikdən az sonra, 1993-cü il sentyabrın 23-də gənclərin problemləri ilə dərindən maraqlanaraq onların böyük bir qrupu ilə görüş keçirən ümummilli lider Heydər Əliyev tərəfindən 26 iyul 1994-cü il tarixdə Gənclər və İdman Nazirliyinin yaradılması haqqında Fərmanın imzalanması respublika gənclərinin təşkilatlanması istiqamətində ilk addım oldu.

Cəmiyyətdə gənclərin rolunun genişləndirilməsi istiqamətində növbəti addım isə 1996-cı il fevralın 2-də ilk dəfə olaraq Müstəqil Azərbaycan Gənclərinin I Forumunun keçirilməsi oldu. Forumda gənclərin vəziyyəti və problemləri ətraflı müzakirə olundu. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev forum iştirakçıları qarşısında proqram xarakterli nitq ilə çıxış edərək müstəqil Azərbaycan Respublikasının gəncləri qarşısında konkret vəzifələr qoydu.

1997-ci il fevralın 1-də forumun birinci ildönümü münasibətilə gənclərin bir qrupunu qəbul edən Prezident Heydər Əliyevin 2 fevral tarixinin Azərbaycan Gəncləri Günü elan edilməsi haqqında fərman imzalaması gənclərimizə göstərilən diqqət və qayğının daha bir parlaq nümunəsi oldu. Həmin vaxtdan etibarən hər ilin 2 fevralında Azərbaycan gənclərinin bayramı təntənəli şəkildə qeyd olunur.

1999-cu il martın 2-3-də gənclərin II forumu keçirildi. Forumun işində iştirak edən Pezident Heydər Əliyev gənclərə diqqət və qayğı göstərilməsinin vacibliyini bir daha vurğuladı, ayrı-ayrı dövlət orqanlarının qarşısında bu sahədə bir sıra vəzifələr qoydu. Forumun qəbul etdiyi sənədlər növbəti mərhələdə gənclərlə işin yeni əsaslar üzərində qurulmasını təmin etdi.

1999-cu il iyulun 29-da dövlətimizin başçısı tərəfindən imzalanmış "Dövlət gənclər siyasəti haqqında" fərman bu sahədə dövlət siyasətinin həyata keçirilməsində keçmiş və bu günümüzlə bağlı tarixi, mənəvi-əxlaqi, mədəni dəyərlərimizin daşıyıcıları olan gənclərə diqqətin artırılması üzrə dövlət orqanlarının vəzifələrini müəyyənləşdirdi.

Azərbaycan Respublikası Prezidentinin 6 may 2002-ci il tarixli fərmanı ilə uşaq və gənclərin hərtərəfli inkişafını təmin etmək, problemlərinin həlli və hüquqlarının müdafiəsi sahəsində daha təsirli tədbirlər görmək üçün gənclər siyasətini tənzimləyən "Gənclər Siyasəti haqqında" Azərbaycan Respublikasının Qanunu qüvvəyə mindi. Həmin qanuna əsasən, Azərbaycan Respublikasında gənclər siyasətinin əsas məqsədi - gənclərin sosial, fiziki, mənəvi və intellektual inkişafına, problemlərinin həllinə və hüquqlarının müdafiəsinə kömək göstərmək, imkan və bacarıqlarını reallaşdıra bilmək üçün şərait yaratmaqdır. Qanunla, Azərbaycan gənclərinin xalqımızın tarixinə, mədəni irsinə, adət və ənənələrinə, dövlət dilinə və rəmzlərinə, milli-mənəvi və ümumbəşəri dəyərlərə hörmət ruhunda tərbiyə olunması, onların yaradıcılıq potensialının ölkənin inkişafına və ümummilli problemlərin həllinə səfərbər olunması, hüquq və azadlıqlarının hər hansı şəkildə məhdudlaşdırılmasının yolverilməzliyi əsas prinsiplər kimi müəyyənləşdirilmişdir.

2003-cü il oktyabrın 13-də Azərbaycan gənclərinin III forumu keçirildi. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev səhhəti ilə əlaqədar forumun işində iştirak edə bilməsə də, forum iştirakçılarına məktubla müraciət etdi. Həmin müraciətdəki "Bu gün iftixar və qürur hissi ilə bildirmək istəyirəm ki, müasir Azərbaycan gəncliyi milli-mənəvi dəyərlərimizi, doğma ana dilimizi, ata-babalardan qalan gözəl adət-ənənələrimizi göz bəbəyi kimi indi də qoruyub yaşadır" sözləri Azərbaycan gəncliyinə ümummilli lider tərəfindən verilən ən yüksək qiymətdir.

Ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulan gənclər siyasətinin əsas məqsədi yeni nəslin fiziki, mənəvi-psixoloji cəhətdən sağlam yetişməsini, istedadlı gənclərin üzə çıxarılmasını və onların ölkənin gələcəyinə töhfə verməsini təmin etməkdir. "Gənc istedadlar üçün xüsusi təqaüdlərin təsis edilməsi haqqında", "Azərbaycanın gənc istedadlarına dövlət qayğısı haqqında", "Dövlət gənclər siyasəti haqqında" qanun, fərman və sərəncamlar, həmçinin, "Gənc ailə", "İstedadlı yeniyetmələrin və yaradıcı gənclərin sosial, iqtisadi və s. problemlərinin həllinə yönəlmiş, onların öz qabiliyyətlərini inkişaf etdirmələrinə kömək edən Dövlət Proqramı" və digər proqramlar ölkəmizdə gənclərin sosial-maddi şəraitinin yüksəldilməsi, ictimai fəallığının artırılması istiqamətində mühüm fundamental bazadır.

> ***"Hər bir xalq özünün xoşbəxt gələcəyə olan ümidlərini ilk növbədə gənc nəsillə bağlayır. Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması onun mənsub olduğu xalqın rifahının, ölkənin çiçəklənməsinin rəhnidir. Bu gün iftixar və qürur hissi ilə bildirmək istəyirəm ki, müasir Azərbaycan gəncliyi milli-mənəvi dəyərlərimizi, doğma ana dilimizi, ata-babalardan qalan gözəl adət-ənənələrimizi göz bəbəyi kimi indi də qoruyub yaşadır".***
>
> **Heydər ƏLİYEV**

Ümumiyyətlə, ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi və həyata keçirdiyi gənclər siyasəti 5 mühüm istiqaməti ehtiva edir:

- milli-mənəvi dəyərlərimizin qorunmasında gənclərin rolunu artırmaq, gənc nəslin tarixi köklərimizə bağlı olaraq vətənpərvərlik ruhunda tərbiyələndirilməsini təmin etmək;
- gənclərin elmi, intellektual potensialının artırılması üçün ciddi təhsil və mədəni islahatlar həyata keçirmək;
- gənclərin təşkilatlanmasını təmin etməklə, onları müstəqilliyimizin keşiyində vahid qüvvə kimi birləşməyə səfərbər etmək;
- gənclərin dövlət idarəçiliyində rolunu əhəmiyyətli dərəcədə artırmaq və onların məsuliyyət hissini formalaşdırmaq;
- Azərbaycan dövlətinin beynəlxalq aləmə inteqrasiyasının yaratdığı imkanlardan gənclərin maksimum səviyyədə yararlanmasına möhkəm əsaslar yaratmaq.

Bunlar ümummilli liderin müəyyən etdiyi strateji hədəflər olub ki, bu gün də Azərbaycan gəncliyi bu hədəflərə doğru inamla irəliləyir.

*Azərbaycan gənclərinin milli-mənəvi ruhda tərbiyəsi, onların problemlərinin həlli dövlətimizin diqqət mərkəzindədir.*

Hər bir ölkənin perspektiv inkişafı, müstəqilliyinin möhkəmləndirilməsi və dövlətçiliyinin gücləndirilməsi birbaşa olaraq, gələcəyin etibarlı təminatı olan gənc kadrların hazırlanmasından, onların intellektual və inkişaf edən qüvvəyə, cəmiyyətin aparıcı üzvlərinə çevrilməsindən asılıdır. Bu mənada müasir Azərbaycan dövlətinin gələcəyi işıqlıdır və zəmanətlidir. Ona görə ki, bu gün Azərbaycanda gənclər dövlət siyasətinin mühüm hissəsini təşkil edir və bu sahədə praqmatik siyasət yürüdülür.

Ümummilli lider Heydər Əliyevin siyasi kursunun davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən respublika gənclərinə münasibətdə həyata keçirilən tədbirlər müasir dövlət quruculuğu prosesində gənc nəsli daha da ön plana çəkir.

2003-cü ildə cənab İlham Əliyevin hakimiyyətə gəlişi ilə Azərbaycanda gənclər siyasəti daha da şaxələnərək mahiyyətcə yeni mərhələyə yüksəldi. "Siz bütün işlərdə mənə arxalana bilərsiniz. Mən də sizə arxalanıram", - deyən Prezident İlham Əliyev qərarları ilə ulu öndər Heydər Əliyevin gənclər siyasətinə sadiqliyini təsdiq etdi. Məhz, 2005-ci ildə "Azərbaycan gəncliyi Dövlət Proqramının (2005-2009) təsdiq edilməsi haqqında" imzalanmış sərəncam gənclərə olan dövlət qayğısının davamı idi. Neft gəlirlərini insan kapitalına çevirən Prezident İlham Əliyev bu işdə də gənclərin üzərinə böyük məsuliyyət qoydu və "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xaricdə təhsili üzrə Dövlət Proqramı"nı təsdiqlədi. Həmçinin, 2007-ci ilin ölkədə "Gənclər ili" elan edilməsilə Prezident İlham Əliyev gənclərin inkişafına nə qədər böyük önəm verdiyini bir daha sübuta yetirdi. Hətta, 2011-ci ildə "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramının qəbul edilməsi dövlətimizin başçısının "Bugünkü gənc sabah ölkəmizi idarə edəcək" tezisindən doğan gənclərə etimad və münasibətin əyani təzahürü oldu. Bunlarla yanaşı, gənclərin hərtərəfli inkişafı üçün Gənclər Mərkəzinin, Gənclər Fondunun və Gənclər Evinin yaradılması, gənc ailələrin dəstəklənməsi, ipoteka şərtlərinin sadələşdirilməsi və s. gəncliyin daha həvəslə çalışmasına və dövlətçiliyin müdafiəsində fəal iştirakına əlavə stimul verdi.

Eyni zamanda, Azərbaycanın birinci xanımı, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti, millət vəkili Mehriban Əliyevanın da gənclərə xüsusi qayğısı qeyd olunmalıdır. Məhz, birinci xanımın sədrliyilə Bakıda "Gənclərin məşğulluq sammiti"nin keçirilməsi həmin diqqətin əyani isbatıdır.

Təkzibolunmaz faktdır ki, gənclərimizin həm Azərbaycanda, həm də xaricdə dəstəklənməsində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın da xüsusi rolu var. Elə "Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatı" çoxşaxəli fəaliyyətilə gənclərimizi milli maraqların qorunması məqsədi ətrafında sıx birləşdirir və Azərbaycan haqqında həqiqətləri dünya ictimaiyyətinin diqqətinə çatdırır.

Göründüyü kimi, yürüdülən gənclər siyasətinin nəticəsidir ki, bu gün Azərbaycan gəncləri cəmiyyətin inkişafında, sosial təbəqə kimi demokratikləşmə prosesində fəal iştirak edir, mədəniyyət, incəsənət, iqtisadiyyat və digər sahələrdə nailiyyətlər qazanır, dövlətçiliyin möhkəmləndirilməsi prosesində yaxından iştirak edirlər.

Məhz həyata keçirilən məqsədyönlü siyasətin nəticəsidir ki, bu gün Azərbaycanda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənclər formalaşır. Azərbaycan gənclərinin ölkənin ictimai-siyasi həyatında rolu günü-gündən artır. Hazırda respublikada mövcud olan yüzlərlə qeyri-hökumət və gənclər təşkilatlarının fəaliyyəti dövlətin yaratdığı şərait sayəsində mümkün olub. Məhz dövlətin gənclərə dəstək və diqqəti nəticəsində Azərbaycan gəncliyində özünə, öz gücünə, istedadına inam hissi formalaşıb. Ötən illər ərzində gənclərimiz beynəlxalq olimpiadalarda və idman yarışlarında yeni-yeni qələbələrilə ölkəmizin şərəfini ucaldıblar.

Gənclərin mənəvi-əxlaqi və hərbi vətənpərvərlik tərbiyəsi, onların ordu sıralarında xidmətə hazırlanması işinin gücləndirilməsi məqsədilə Gənclər, İdman və Turizm Nazirliyi, nazirliyin yerli idarələri orta təhsil müəssisələri, hərbi komissarlıqlar və hərbi hissə komandirləri ilə birlikdə tədbirlər keçirirlər. 1995-ci ildən etibarən orta ümumtəhsil məktəblərinin IX-X sinif şagirdləri arasında "Şahin" hərbi-idman oyunları, 1998-ci ildən isə VI-VIII sinif şagirdləri arasında "Cəsurlar" hərbi-idman və turizm oyunları keçirilir.

*Azərbaycanın müstəqilliyini qorumaq hər bir Azərbaycan gəncinin müqəddəs borcudur*

Azərbaycan cəmiyyətinin ayrılmaz hissəsi olan Silahlı Qüvvələrimizdə öz konstitusiya borcunu - Vətənin müdafiəsi kimi müqəddəs bir vəzifəni şərəflə yerinə yetirən şəxsi heyətin böyük əksəriyyətini gənclər təşkil edir. Ümummilli lider Heydər Əliyevin "Ordu xidməti çox böyük fədakarlıq tələb edir, cəfakeşlik tələb edir. Ölkəmizin hər bir gənci, Azərbaycan xalqına, millətinə mənsub olan hər bir gənc öz şərəfli borcunu mütləq yerinə yetirməlidir, orduda xidmət etməlidir. Orduda xidmət edib, sonra tərxis olan gənc bizim cəmiyyətdə də, həyatımızın bütün sahələrində də ən dəyərli insan hesab olunur" sözləri dövlətin ordu gənclərinə diqqətinin və qayğısının təzahürüdür.

Azərbaycan gənclərinə günü-gündən artan dövlət qayğısı nəticəsində bu gün Silahlı Qüvvələrdə vətənpərvər, mənəviyyatca saf, fiziki cəhətdən sağlam gənclər xidmət edirlər.

Gənc nəslin məhz vətənpərvərlik ruhunda tərbiyə olunması xalq və dövlət qarşısında duran ən mühüm vəzifələrdən biridir. Bu vəzifələrin yerinə yetirilməsi istiqamətində Silahlı Qüvvələrdə geniş tədbirlər həyata keçirilir. Bu baxımdan təkcə 2014-cü il ərzində Bakı şəhərində, Bərdə, Beyləqan, Biləsuvar, Qusar, Şəmkir rayonlarında digər dövlət qurumları və ictimai təşkilatlarla birlikdə Müdafiə Nazirliyi tərəfindən hərbi vətənpərvərlik mövzusunda keçirilmiş kütləvi tədbirlər ordu, səngər həyatı ilə cəmiyyətin, xüsusən onun aparıcı qüvvəsi olan gənc nəslin yaxından tanış edilməsi üçün kütləvi informasiya vasitələrinin, Qeyri-Hökumət təşkilatlarının və ictimaiyyət nümayəndələrinin hərbi hissələrə, cəbhə xəttinə ziyarətləri gənc nəslin mübariz ruhda yetişdirilməsində mühüm əhəmiyyət kəsb edir.

Atılan addımlar, görülən tədbirlər bu gün artıqlaması ilə öz bəhrəsini verir. Gərgin keçən 2014-cü ildə təmas xəttində düşmənin hər cür təxribatına inamla cavab verən Azərbaycan əsgərinin hər an, hər dəqiqə xalqın dəstəyini hiss etməsi, gənclərimizin bir nəfər kimi Vətənin müdafiəsi uğrunda mübarizəyə hazır olmasını əyani şəkildə nümayiş etdirməsi, gənclərə münasibətdə Heydər Əliyev kursunun, İlham Əliyev siyasətinin təntənəsidir.

Bu gün Azərbaycan Ordusunun qarşısında respublikamızın ərazi bütövlüyünün bərpa edilməsi kimi müqəddəs bir vəzifə durur. Bu vəzifəni yerinə yetirəcək əsas qüvvə isə birinci növbədə Azərbaycanın vətənpərvər gəncləridir.

**Müdafiə Nazirliyi
Mənəvi-Psixoloji
Hazırlıq və İctimaiyyətlə
Əlaqələr İdarəsi**

# Xəbərlər: hadisələr, faktlar

## Böyük Çanaqqala zəfəri qeyd ediləcək



Yanvarın 15-də Rəcəb Tayyib Ərdoğan Azərbaycan Prezidenti İlham Əliyev ilə birgə keçirdiyi mətbuat konfransında Çanaqqala döyüşündə qazanılmış qələbənin 100 illiyinin qeyd ediləcəyini bildirmişdi. Bununla bağlı, aprelin 24-də Türkiyəyə bir sıra ölkələrin dövlət başçıları dəvət ediləcək.

Ermənistan Prezidenti Serj Sarkisyan Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın aprelin 24-də Çanaqqala qələbəsinin 100 illiyinin qeyd edilməsi münasibətilə təşkil olunacaq bayram tədbirlərində iştirak etməklə bağlı dəvətini rədd edib.

APA-nın "Novosti Armeniya"-ya istinadən verdiyi məlumata görə, bu barədə S.Sarkisyanın mətbuat xidməti məlumat yayıb.

## Bəşər Əsəd qüvvələri Kobanidə kürd mövqelərini bombalayıb



Suriya Prezidenti Bəşər Əsədin nəzarətində olan silahlı qüvvələr ölkənin Suriya ilə sərhədindəki Kobani şəhərində İŞİD-ə qarşı müqavimət göstərən kürd silahlılarının mövqelərini bombalayıb.

APA-nın Türkiyə mətbuatına istinadən verdiyi xəbərə görə, bu barədə Suriya kürdlərinin Demokratik Birlik Partiyasının (PYD) hərbi qanadı olan YPG açıqlama yayıb.

Bundan sonra hücuma keçən YPG silahlıları 30 Suriya əsgərini girov götürüblər.

## 2014-cü ildə Rusiyadan kapital axını 151,5 milyard dollar təşkil edib



2014-cü ildə Rusiyadan kapital axını bütün proqnozları aşaraq 151,5 milyard dollar təşkil edib.

APA-nın məlumatına görə, bu rəqəmi Rusiya Mərkəzi Bankı (Bank Rossii) açıqlayıb. Kapitalın ölkədən kənara ən böyük axını ötən ilin payızında tətbiq olunan sanksiyalar nəticəsində xarici kapital bazarlarının Rusiyanın üzünə bağlanmasından sonra baş verib.

I rübdə Rusiyadan 48,5 milyard, II rübdə 22,4 milyard, III rübdə 7,7 milyard, IV rübdə isə 72,9 milyard dollar vəsait çıxarılıb.

2013-cü ildə Rusiyadan çıxan kapitalın həcmi 61 milyard dollar olub. 2014-cü ildə baş verən kapital axınının həcmi bu rəqəmdən 2,5 dəfə çoxdur.

2014-cü ilin oktyabrında Rusiya Maliyyə Nazirliyinin uzunmüddətli strateji planlaşdırma departamentinin direktoru Maksim Oreşkin ölkədən çıxacaq kapitalın həcminin 90-100 milyard dollar həcmində olacağını proqnozlaşdırmışdı.

## 3D printerdə çap olunmuş avtomobil saatda 40 kilometr sürət yığa bilir



3D printerlə aviasiya mühərrikinin hissələrinə qədər, demək olar ki, hər şeyi çap və yaxud istehsal etmək olar. Burada söhbət artıq printer vasitəsilə, məsələn, avtomobil istehsal etməkdən gedəcək.

AzərTAc Euronews telekanalına istinadla xəbər verir ki, çəkisi 800 kiloqram olan avtomobilin istehsalı üçün hazırda 44 saat vaxt lazım gəlir. Şirkət ilin axırına qədər bu zamanı 20 saat azaldaraq 24 saata, növbəti mərhələdə isə daha iki dəfə qısaldaraq 12 saata endirməyi planlaşdırır.

Saatda 40 kilometr sürətlə hərəkət edən ikinəfərlik avtomobil bütünlüklə printerdə çap olunub və 212 laydan ibarətdir. "Strati" adlandırılan avtomobilin 15 min avrodan bir qədər baha olacağı gözlənilir.

## ABŞ Prezidenti Barak Obama İrana qarşı sanksiyalara veto qoyacaq



ABŞ Prezidenti Barak Obama İrana qarşı sanksiyalara dair qanun layihəsinin Konqres tərəfindən qəbul ediləcəyi təqdirdə ona veto qoyacağını bildirib. Bu barədə o, Böyük Britaniyanın Baş naziri Devid Kameron ilə birgə keçirdiyi mətbuat konfransında məlumat verib.

AzərTAc İTAR-TASS informasiya agentliyinə istinadla xəbər verir ki, öz niyyəti barədə demokrat senatorları məlumatlandırdığını deyən Barak Obama Konqresi təmkinli olmağa və hazırda İranla "altılıq" ölkələri (BMT-nin Təhlükəsizlik Şurasının 5 daimi üzvü və Almaniya) arasında davam edən danışıqların sonunu gözləməyə çağırıb.

İranla hazırkı danışıqların baş tutmayacağı təqdirdə belə, problemin həmin andan hərbi müstəviyə adlayacağı anlamına gəlmədiyini qeyd edən Barak Obama, bu halda məqsədə nail olmaq üçün başqa variantları nəzərdən keçirməyin lazım gələcəyini bildirib.

## Rusiyada ÜDM-in azalması Ermənistan iqtisadiyyatını da zəiflədəcək




Moody's beynəlxalq reytinq agentliyi 2015-ci ildə Rusiyada ümumi daxili məhsulun (ÜDM) 5,5 faiz azalacağını proqnozlaşdırıb.

AzərTAc RİA Novosti informasiya agentliyinə istinadla xəbər verir ki, Moody's Rusiyada ümumdaxili məhsulunun azalmasının, həmçinin Ermənistan iqtisadiyyatını da zəiflədəcəyini ehtimal edir.

Agentliyin bəyanatında Rusiyada iqtisadi vəziyyətin Ermənistanın qızıl və valyuta ehtiyatlarına təsir edəcəyi qeyd olunur. "Rusiya iqtisadiyyatında kəskin zəifləmə, pul köçürmələri axınının azalması Ermənistanın qızıl və valyuta ehtiyatlarına potensial təzyiq göstərə bilər", - Moody's beynəlxalq reytinq agentliyinin bəyanatında bildirilir.

**Hazırladı:
Ə.MƏHƏRRƏMOĞLU**

AZƏRBAYCAN ORDUSU

*Nəsillərə nümunə*

# ...Döyüşdü, tarixləşdi, əbədiləşdi



***Təzə ilin ilk iş həftəsində aylıq plana görə xidməti zərurətlə gedəcəyimiz hərbi hissələr müəyyənləşdirilib. Bildiyimiz kimi, yanvar ayında 2 dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun anadan olmasının 105, əbədiyyətə qovuşmasının 70 ili tamam olur. Bu məqsədlə əfsanəvi generalın doğulub boya-başa çatdığı Lənkəran şəhərinə ezamiyyətə getməyi və oradakı ev muzeyindən reportaj hazırlamağı qərarlaşdırdım.***

Qatarda yolboyu ezamiyyət müddətində görəcəyim işləri, verəcəyim sualları düşünürəm... "Kaş, işğal altında olan rayonlarımız - Füzulimiz, Cəbrayılımız, Zəngilanımız, Qubadlımız, Ağdamımız... erməni faşistlərindən tezliklə azad olunsun, belə bir qatarla o yerlərə səfər edək, Azərbaycanımızın bir parçası olan o torpaqlarımızda peşə borcumuzu həyata keçirək".

Zümrüd ləpələrin aramsız olaraq döyəclədiyi Xəzərin sahilində yamyaşıl meşələrə, zəngin təbiətə malik olan bir diyarımız var - Lənkəran. Ana təbiət gözəlliklərini bəxş edib bu yerlərə...

Lənkəran şəhərinin geniş meydanında Azərbaycanın igid oğlu, tank qoşunları qvardiya general-mayoru, 2 dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun tunc heykəli ucalır. Görkəmli heykəltəraş Cəlal Qaryağdı bu möhtəşəm memarlıq əsərini o qədər canlı yaradıb ki, sanki qəhrəman buraya ayaq basan qonaqları qarşılayır, özü də ehtiramla yola salır. Hündürboylu cəsur tankçı qürurlu, məğrur görkəmdədir. Dünyanı lərzəyə salan faşizmə bu qüruruyla, bu məğrurluğuyla qalib gəldi Vətən oğlu!

Xalqımızın fəxri olan ölməz sərkərdənin ev muzeyini həmişə olduğu kimi, o gün də qonaq-qaralı gördüm. Ev muzeyinin direktoru, sərkərdənin yaxın qohumu Tamara xanım gələn qonaqlarla ekskursiyanı özü aparırdı. O, igid tankçının keçdiyi şərəfli döyüş yolundan elə maraqla danışırdı ki, epizodlar, hadisələr göz önündə canlanırdı.

Bəli, generalın müqəddəs ata-baba ocağında - onun ev muzeyindəyik. Qısa məlumat üçün bildirim ki, ev muzeyi 1969-cu ilin 9 mayında - Qələbə günü açılıb. İlk direktoru qəhrəmanın vəfalı ömür-gün yoldaşı Xavər xanım Aslanova olub. O, 1979-cu ildə rəhmətə gedənəcən ev muzeyinə rəhbərlik edib. 1992-ci ildən ailənin yaxın qohumu Tamara xanım Fətullayeva ev muzeyinə direktor təyin edilib.

Tamara xanım söhbətində bildirdi ki, muzeyin ekspozisiya quruluşu müasir tərtibatla hazırlanıb. "Zallarda yerləşdirilən vitrinlər və rəflərdə eksponatların nümayişi üçün zəruri olan avadanlıqlar vardır. Hazırda muzeyin fondunda eksponatların ümumi sayı 2272 ədəddir. Qəhrəmanın yaxınları, ailə üzvləri ilə əməkdaşlıq nəticəsində muzeyin fonduna nadir və maraqlı eksponatlar daxil olub. Bu eksponatlardan səyyar sərgilərdə vaxtaşırı geniş istifadə edilir. Muzeyin yarandığı gündən indiyədək 1 milyona yaxın ziyarətçisi olub. Təkcə keçən il 24 minə yaxın qonaq muzeyə ekskursiyaya gəlib. Turistlər, məktəblilər, tələbələr, hərbçilər, veteranlar və ictimaiyyət nümayəndələri muzeyimizin daimi qonaqlarıdır".

Sərkərdənin mənalı həyat və şərəfli döyüş yolunu əks etdirən eksponatlar qonaqlarda maraq doğurur.



Birinci daxil olduğumuz kiçik zalda fəhlə Əhəd kişinin ailəsində qəhrəmanın anadan olması, divardan asılan çərçivədəki fotoşəklin anası Nuşafərin xanıma məxsusluğu diqqətə çatdırılır. Müharibədə iki oğlunu itirən bu dərdli ana 1959-cu ildə vəfat edib. Ekspozisiyada nümayiş olunan Lənkəran kərpic zavodunun foto şəkli də maraq çəkir. Atasını çox erkən - 13 yaşında itirən Həzi həmin zavodda fəhlə işləyib. Lakin komandir olmaq ən böyük arzusu olduğundan o hərbi məktəbə daxil olmuşdu. Sərkərdənin anasına məxsus qədim məişət əşyaları və geyimi muzeyin qiymətli əşyaları sırasındadır. Keçmiş Lənkəranın tarixi görünüşünü əks etdirən plakat növbəti zala keçid üçün sonluq verir.

İkinci zal qəhrəmanın hərbi xidmət illərini, müharibəyə qədər olan dövrünü əhatə edir. Zaqafqaziya hərbi hazırlıq və Leninqrad süvari məktəblərində təhsil aldığı illərdə çəkdirdiyi fotoşəkillər muzeyin nadir eksponatlarıdır. Ordu həyatına süvari kimi qədəm qoyan həmyerlimiz sonralar at belindən düşüb tank sükanı arxasına keçir. Vitrində onun kapitan olduğu vaxt aldığı şəxsi vəsiqə və çantası diqqətimizi cəlb edir. Çox səliqəli formada, görünüşünü itirmədən saxlanılıb. Xəritə-sxemdə müharibənin ilk aylarında Sovet qoşunlarının hərəkət istiqaməti göstərilir.

Muzeyin 3-cü zalının ekspozisiyasında Moskva və Stalinqrad uğrunda gedən döyüşlərin fotoşəkilləri nümayiş olunur. 1941-1943-cü illərdə qəhrəman tankçının keçdiyi döyüş yollarından bəhs edən eksponatlar "danışır".

"Moskva uğrunda döyüşlərdə", "H.Aslanov döyüş mövqeyini yoxlayarkən", "H.Aslanov Moskvanın müdafiəsi uğrundakı döyüşdən sonra öz dostları ilə" və s. fotoşəkillərə nəzər saldıqca, igid sərkərdənin ölməzliyinə, əbədiyyət qazanmasına bir daha əmin olursan.

Qəhrəmanın daim sinəsində gəzdirdiyi "Qvardiya nişanı" cəsurluğun və igidliyin rəmzi kimi qiymətli əşyalardan biridir.

Dördüncü zal isə tank qoşunları komandanı qvardiya general-mayoru Həzi Aslanovun Belarusiya və Pribaltika uğrunda gedən döyüş yoluna həsr olunub. 1944-1945-ci illəri əhatə edən bu nümunələrdə həmişə hərbi biliyini təkmilləşdirməyə çalışan həmyerlimizin akademik kursları bitirməsi ilə bağlı vəsiqəsinə xüsusi diqqət edirəm. O, 1943-cü il dekabrın 17-dən 1944-cü il aprelin 6-dək Moskvada Tank Qoşunları Hərbi Akademiyasının akademik kurslarının dinləyicisi olmuşdu. 1944-cü ilin 13 mart tarixində Azərbaycanın şanlı oğluna SSRİ Xalq Komissarları Sovetinin qərarı ilə tank qoşunları qvardiya general-mayoru ali hərbi rütbəsinin verilməsini təsdiqləyən sənəd də diqqətimdən yayınmır.

Burada bir maraqlı faktı da öyrənirəm. Sərkərdə-tankçı hərbi akademiyanın dinləyicisi olarkən ittifaqın məşhur "Moskva" mehmanxanasında xalq şairi Səməd Vurğunla görüşür və xalq şairi onu növbəti dəfə şəxsən cəbhəyə yola salır.

Həmin ildə Moskvada nəşr olunan jurnalda azərbaycanlı generalın "Meşəlik - bataqlıq ərazidə təqib zamanı tank briqadasının manevri" adlı məqaləsi isə böyük hərb xadiminin elmi araşdırmalarından soraq verir.

1945-ci il yanvarın 24-də general Aslanov bir dəstə zabitin müşayiəti ilə cəbhənin ön xəttini yoxlayırdı. Qəflətən generalın dayandığı yerdə mərmi partlayır. Ölümcül yaralanmış sərkərdə son nəfəsində korpus komandirinə məruzə etməkdə davam edirdi: "Tapşırıq yerinə yetirilmişdir. Tankçılar irəli gedir". Bu sözlər Azərbaycanımızın qəhrəman oğlu, yenilməz sərkərdə H.Aslanovun son sözləri kimi muzeyin eksponatları sırasında yer alıb.

Sonuncu zalda qəhrəmanın xatirə əşyaları qorunur. Nümayiş olunan eksponatlar içərisində generalın hərbi geyimini xüsusi qeyd etmək istəyirəm. Mücrüdəki müqəddəs torpaq isə H.Aslanovun Volqaqraddakı xatirə məzarından götürülüb. Haqqında yazılan kitablar, əsərlər müəlliflərin imzaları ilə vitrində nümayiş olunur. Sərkərdənin yağlı boya ilə çəkilən rəsm əsərinə (müəllifi görkəmli rəssam Toğrul Nərimanbəyovdur) baxanlar bir anlıq ayaq saxlayır, düşünürlər: qəhrəmanlar ölmür, unudulmur!

Muzeyin qarşısında qəhrəmanın öz əliylə əkdiyi innab ağacı da canlı bir eksponat, həzin bir xatirə kimi qorunur. 1918-ci ildə 8 yaşlı Həzinin əkdiyi bu ağac hər kəsə tarixə çevrilmiş bir abidə təəssüratı bağışlayır. Sanki bu ağac qəhrəmanının büstünü qucaqlayıb ona həzin bir layla deyir. Elə bu yerdə ölməz şairimiz Səməd Vurğunun misralarını xatırlayıram:

*Qərinələr arxasından*
*Cavanşir də, Babək də*
*Qılıncıyla salam verir*
*Bu müqəddəs türbəyə.*
*Göydə Günəş şölə saçır,*
*Nəğmə tutur külək də.*
*Yerdə insan nəfəs alır,*
*Qəhrəmana eşq deyə.*

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Unutmayaq!

***1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir:***

*Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut), işğal tarixi - 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km.*
*Şərur rayonunun Kərki və Cünnüt kəndləri (17 fevral 1990) - 19 kv.km.*
*Laçın (17 may 1992-ci il) - 1835 kv.km.*
*Kəlbəcər (3-4 aprel 1993-cü il) - 1936 kv.km.*
*Ağdam (23 iyul 1993-cü il) - 1094 kv.km.*
*Cəbrayıl (18 avqust 1993-cü il) - 1059 kv.km.*
*Füzuli (23 avqust 1993-cü il) - 1386 kv.km.*
*Qubadlı (31 avqust 1993-cü il) - 802 kv.km.*
*Zəngilan (30 oktyabr 1993-cü il) - 707 kv.km.*

**Bu torpaqları azad etmək bizim müqəddəs borcumuzdur!**

# İdman

## Fransa mətbuatı: Bakı-2015 dünyanın idman həyatında mühüm hadisə olacaq



Fransanın idman portalı Azərbaycanda keçiriləcək ilk Avropa Oyunlarına hazırlıqdan yazıb. AzərTAc xəbər verir ki, məqalədə Bakının Avropa Oyunlarına ciddi hazırlaşdığı, Avropa Oyunlarının təntənəli açılışına 147 gündən az müddət qaldığı qeyd olunur.

Avropa Oyunlarının açılışından əvvəl və idman yarışlarının gedişi zamanı möhtəşəm mədəni tədbirlərin keçiriləcəyi xüsusi vurğulanan məqalədə səhnə ulduzlarının, 2011-ci ildə keçirilmiş "Eurovision" mahnı müsabiqəsi qaliblərinin və digər müğənnilərin çıxış edəcəkləri haqqında məlumat verilir.

Sonda "Bakı-2015" Avropa Oyunlarının yalnız Odlar Yurdunun deyil, həm də dünyanın idman həyatında mühüm hadisə olacağı diqqətə çatdırılır.

## Güləş ənənələrinə dəyişiklik edilib



Beynəlxalq Olimpiya Komitəsinin tələblərinə cavab vermək, güləş idman növünün kütləviliyini artırmaq məqsədilə Dünya Güləş Birliyi uzun illərdən qalan ənənələrdə dəyişiklik edib.

Belə ki, ilk dəfə 1972-ci il Münhen Yay Olimpiya Oyunlarından tətbiq olunan ənənəvi sarı və qırmızı rəngli güləş döşəkləri tünd göy və narıncı rənglilərі ilə əvəzlənəcək. Bundan başqa, kostyum və qalstukla görüşləri idarə edən hakimlər indi polo köynək və şalvarda olacaqlar. Hazırda göy və qırmızı rəngli trikolarla çıxış edən güləşçilər vahid dizaynlı formaya keçəcəklər. Bu dəyişiklik ilin sonuna qədər həyata keçiriləcək və hər üç güləş növündə tətbiq olunacaq.

## Velosipedçimiz Dünya kubokunda 5-ci oldu



Kolumbiyanın Kali şəhərində velosiped idmanının trek növü üzrə Dünya Kubokunun sonuncu, 3-cü mərhələsi yekunlaşıb.

Planetin 46 ölkəsindən olan idmançıların mübarizə apardığı 200 metr məsafəyə sprint yarışında mübarizə aparan O.İsmayılova uğurlu çıxışla yadda qalıb. 32 nəfər arasında yarışan velosipedçimiz təsnifat mərhələsində 5-ci olub və 1/16 finala vəsiqə qazanıb. Yarışın bu mərhələsində Hollandiya, 1/8 finalda isə Rusiya nümayəndəsini mübarizədən kənarlaşdıran O.İsmayılova 1/4 finalda Honqkonq təmsilçisinə uduzub.

Beləliklə, 5-ci yer uğrunda yarışmalı olan idmançımız Böyük Britaniyanın 2, Kubanın isə 1 velosipedçisini qabaqlamaqla Dünya kubokunun 3-cü mərhələsini 5-ci pillədə bitirib.

## Azərbaycan atleti beynəlxalq turnirdə bürünc medal qazanıb



Latviyanın Kuldiqa şəhərində atletika üzrə "Kuldiqa Catherina Cup" Beynəlxalq turniri təşkil olunub. AzərTAc xəbər verir ki, yarışda Azərbaycan ilə yanaşı, 17 ölkədən idmançılar birincilik uğrunda mübarizə aparıb.

Turnirdə 60 metr məsafəyə sədlərlə qaçış yarışlarının təsnifat mərhələsində 7,97 saniyə nəticə ilə atletimiz Rahib Məmmədov finala yüksəlib. Həlledici mərhələdə R.Məmmədov 7,95 saniyə göstərici ilə bürünc medala sahib olub. Bu nəticə ilə atletimiz şəxsi nəticəsini yaxşılaşdırıb.

## Hollandiya millisinin keçmiş futbolçusu rəsmən Bakı klubunda



Bakı "İnter"i Hollandiya millisinin üzvü ilə rəsmi müqavilə imzalayıb. Bir neçə gün əvvəl "İnter"in Antalyadakı düşərgəsinə qoşulan Ruben Şaken rəsmən Bakı təmsilçisinin oyunçusu olub. "İnter" Hollandiya "Feyenoord"unun yarımmüdafiəçisi ilə 1,5 illik müqavilə imzalayıb. Qeyd edək ki, 33 yaşlı futbolçu "Feyenoord"dan öncə "Kambur", "Veendam" və "Venlo"nun şərəfini qoruyub. O, 2012-2013-cü illərdə isə Hollandiya millisində çıxış edib. Şaken əsas komandanın heyətində 6 oyunda 2 dəfə fərqlənib.

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Silahlı Qüvvələrin Baş Qərargah rəisi NATO-nun toplantısında iştirak edib

Azərbaycan Respublikası Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov NATO-nun Hərbi Komitəsinin sədri general Knut Bartelsin dəvətilə Alyansın yanvarın 21-də Brüssel şəhərində (Belçika Krallığı) keçirilən toplantısında iştirak edib.

NATO-nun "Qətiyyətli Dəstək" Missiyasına töhfə verən ölkələrin qərargah rəisləri səviyyəsində keçirilən görüşdə Əfqanıstan İslam Respublikasındakı siyasi vəziyyət, əməliyyat şəraitindəki dəyişikliklər, onların Əfqanıstan Milli Təhlükəsizlik Qüvvələrinə təsiri və s. mövzular ətrafında müzakirələr aparılıb.

## Düşmənin cəbhədə təxribat törətmək cəhdinin qarşısı alınıb

Yanvarın 21-nə keçən gecə erməni kəşfiyyat-təxribat qrupları qoşunların təmas xəttini keçməyə cəhd göstəriblər.

Silahlı Qüvvələrimizin bölmələrinin sayıqlığı, düşmənin yaxınlaşmasının əvvəlcədən aşkar edilməsi və görülən qabaqlayıcı tədbirlər nəticəsində şiddətli atışma zamanı itki verən ermənilər geri çəkilməyə məcbur edilib.

Qarşı tərəfin ilkin rəsmi məlumatına görə, işğalçılardan Naapet Asatryan məhv edilib, Ovannes Qasparyan isə ağır yaralanıb.

Müdafiə Nazirliyi bildirir ki, Silahlı Qüvvələrimizin bölmələri heç bir itki verməməklə yanaşı, bütün cəbhə boyu əməliyyat şəraitinə tam nəzarət edir və düşmənin istənilən təxribatının qarşısını almağa hər an hazırdır.

## Ermənistanın Müdafiə Nazirliyi yalan məlumatlar yaymaqda davam edir

Ermənistanın Müdafiə Nazirliyinə istinadən düşmən tərəfinin kütləvi informasiya vasitələrinin guya yanvarın 22-nə keçən gecə Silahlı Qüvvələrimizin bölmələri tərəfindən cəbhədə təxribat törədilməsi və itki verməyimiz barədə yaydıqları məlumatlar yalandır.

Müdafiə Nazirliyi bildirir ki, Silahlı Qüvvələrimizin bölmələri heç bir itki verməyib. Azərbaycan əsgəri cəsarətlə düşməni məhv edərək, bütün cəbhə boyu əməliyyat şəraitinə tam nəzarət edir.

*Sülhməramlılarımız*

# Azərbaycanımızı layiqincə təmsil edən oğullar




***Yanvarın 21-də Əfqanıstanda xidməti borclarını başa vurmuş 39 nəfər hərbçimiz Vətənə qayıdıb. 35-i əsgər olmaqla 3 zabit, 1 gizirdən ibarət olan döyüşçülərimiz Vətənə qayıtdıqları üçün sevincli və qürurluydular. Əfqanıstanda sülhməramlı missiyalarını başa vuran döyüşçülərimizin gözlərində sevinc hiss olunurdu...***

Zabit Anar Cavadov sıra qarşısına çıxaraq bir qrup sülhməramlının vəzifə borcunu yerinə yetirərək Vətənə qayıtması barədə zabit Valeh Rəcəbova raport verdi. Sonra yüksək rütbəli zabit sülhməramlıları salamlayaraq çıxış etdi.

- Əvvəla sizi Vətənə qayıtmağınız münasibəti ilə təbrik edirəm. Hər zaman nizam-intizamlı olduğunuza və komandirlərinizin tapşırıqlarına vaxtında və düzgün əməl etdiyinizə əminəm. Vətəndən uzaqda Azərbaycanımızı layiqincə təmsil etdiyiniz üçün hər birinizə minnətdaram.

Yaranmış fürsətdən istifadə edib döyüşçülərimizlə söhbət edirəm. 2005-ci ildən sülhməramlı qüvvələrdə bölük komandiri vəzifəsində xidmət edən kapitan Vüsal Bağırova görə, ölkə sərhədlərindən kənarda, yadellilərlə birgə xidmət etmək çətin olsa da, Azərbaycanı təmsil etmək qürurvericidir. "Beynəlxalq məkanda Azərbaycan əsgərinə münasibət ürəkaçandır. Çünki əsgərlərimiz nizam-intizamlı, cəsur və mərddirlər. Həmçinin, digər dövlətlərin əsgərləri arasında Azərbaycan əsgəri döyüş qabiliyyəti və peşəkarlığı ilə fərqlənir", - deyə bölük komandiri ürək sözlərini bölüşdü.



Əsgər Kamran Abdullayev isə söhbətimizdə qeyd edir ki, digər ölkələrin sülhməramlı qüvvələrinə nisbətən bizim üzərimizə düşən xidməti vəzifə daha çətin olsa da, mühafizənin öhdəsindən layiqincə gəldik. Məhz buna görə də beynəlxalq sülhməramlı qüvvələr komandanlığının bizə təqdim etdiyi fəxri fərman, medal və qiymətli hədiyyələrlə Vətənə qayıtdıq.

Əlbəttə, hər bir sülhməramlı əsgərimizə "Afərin" deyirik. Çünki onlar mürəkkəb münaqişə bölgəsində Vətənimizi və Silahlı Qüvvələrimizi layiqincə təmsil ediblər.

**Leytenant**
**Ceyhun CƏFƏRLİ,**
**"Azərbaycan Ordusu"**

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, Akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Lalə HÜSEYNOVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə nəşr olunur. "Azərbaycan Ordusu" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Hərbi nəşriyyatın mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 192
Nüsxə 4440